*UOT 371*

***Mətanət Fariz qızı Həsənova***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
https://orcid.org/0000 0003 4998 6895

# KOMMUNİKATİV TEXNOLOGİYALARLA ÖTÜRÜLƏN İNFORMASİYALARIN TƏRKİB ELEMENTLƏRİNƏ GÖRƏ QAVRANILMASI

***Матанат Фариз гызы Гасанова***
*старший преподаватель Азербайджанского Университета Языков*

# ВОСПРИЯТИЕ ИНФОРМАЦИИ, ПЕРЕДАВАЕМОЙ ПО СРЕДСТВУ КОММУНИКАТИВНЫХ ТЕХНОЛОГИЙ, ПО СОСТАВНЫМ ЭЛЕМЕНТАМ

***Matanat Fariz Hasanova***
*senior lecturer at Azerbaijan University of Language*

# PERCEPTION OF INFORMATION TRANSMITTED THROUGH COMMUNICATIVE TECHNOLOGIES ACCORDING TO THE COMPONENT ELEMENTS

**Xülasə.** Məqalədə kommunikativ texnologiyalarla ötürülən informasiyaların tərkib elementlərinə görə qavranılmasından bəhs edilir. Bildirilir ki, kommunikativ texnologiyalarla ötürülən informasiyaların qavranılması göründüyü qədər də sadə deyildir. Bu zaman informasiyanın özünün tərkibi, digər tərəfdən onu qavrayanın imkan və xüsusiyyətləri mühüm amil kimi çıxış edir. Bu amillərin təsirindən asılı olaraq eyni obraz fərqli insanlar tərəfindən fərqli qavranılır. Bundan başqa, subyektin fərdi quruluşu, fəaliyyət motivasiyası, ustanovkası da fərqliliyi yaradan amillərə aid edilir.
***Açar sözlər:*** *informasiya, kommunikativ texnologiya, qavrama, mətn*

**Резюме.** В статье говорится о восприятии информации, передаваемой коммуникационными технологиями, по составляющим ее элементам. Сообщается, что понять информацию, передаваемую коммуникационными технологиями, не так просто, как кажется. В это время важными факторами выступают содержание самой информации, с другой стороны, возможности и особенности человека, ее воспринимающего. В зависимости от влияния этих факторов один и тот же образ по-разному воспринимается разными людьми. Кроме того, к факторам, создающим различия, относят индивидуальную структуру субъекта, мотивацию деятельности и установку.
***Ключевые слова:*** *информация, коммуникативная технология, восприятие, текст*

**Summary.** The article talks about the perception of information transmitted by communication technologies according to its constituent elements. It is reported that understanding the information transmitted by communication technologies is not as simple as it seems. At this time, the content of the information itself, on the other hand, the capabilities and characteristics of the person who perceives it, act as important factors. Depending on the influence of these factors, the same image is perceived differently by different people. In addition, the subject's individual structure, activity motivation, and attitude are also attributed to the factors that create differences.
***Key words:*** *information, communication technology, perception, text*

Müasir dövrdə insanlar məlumatların əksəriyyətini informasiya kommunikasiya texnologiyaları vasitəsi ilə alır. Vizual vasitəçilər onlara ətrafdakı gerçəkliyin obyektlərini müəyyənləşdirmək mexanizmini işə salmağa kömək edir. Vizual komponentin olmaması qavrama imkanlarını məhdudlaşdırır. Ona görə də təlim prosesində kommunikativ texnologiyalarla ötürülən informasiyaların tərkib elementlərinə görə qavranılmasına verilən tələbləri dəqiq bilmək la-

zımdır. Burada əsas vəzifə subyektlərə dünyanın gerçəkliklərini çatdırmaq, anlatmaq, öyrətmək və mənimsətməkdir.

Fərdin qavrayış imkanları ilə qəbul edilən vizual görüntülər mədəniyyətin əsasında duran elementlərdən az istifadəyə səbəb olur. Əgər auditoriyada müxtəlif xalqların nümayəndələri varsa, bir çox görüntüləri şəxsi deyil, bəşər mədəniyyətinin daşıyıcıları kimi qəbul edilir. Bu vəziyyətdə, əlbəttə ki, milli elementləri ifadə edən informasiya diqqəti yayındırır. Əksinə, auditoriyanın etnik mənşəyi eynidirsə, o halda milli mədəniyyətə xas olan simvol, obraz, işarə və səslərin qavranılması asanlaşır. Bəzi kommunikatorlar kütləvi qavrayışa üstünlük verərək hazırladıqları informasiyaları ona uyğunlaşdırır, öz təqdimatlarında yalnız orta məzmunlu obrazlar yerləşdirir, buna görə də tamaşaçı ötürülən məlumatı qavrayır. Yəni, bu halda yalnız topluma xas olan stereotip obrazın analoji əksi baş vermir, yeni bir simvolik sənət meydana gəlir.

Hər bir mətnin içərisində biri-birini əvəz edən hadisələr, situasiyalar, ideya, hiss, mühakimə, insan dəyərləri, bir sözlə, real həyat durur. Onların necə qavranılması psixologiyada həmişə çoxsaylı suallar yaradıb. “Mətnin qavranılmasında nələr baş verir?”, “Mətni qavrayanın daxili və xarici vəziyyətinin qavramaya təsiri olurmu?”, “Mətnin qavranılmasına kommunikativ münasibətlərin təsiri nə dərəcədədir?”, “Mətni ötürənlə onu qavrayan arasındakı kommunikativ münasibətlər hansı səviyyədə və hansı tərzdə olmalıdır?” və s.

Mətnin qavranılması ayrı-ayrı fikirlərin qavranılmasından daha çətindir. Mətn qavranılarkən onun içərisində yerləşdirilmiş fraqmentlər biri-birini əvəz edərək, biri-birinin ardınca düzülərək sonda insan şüurunda bitmiş fikir əmələ gətirir. Subyekt mətni qavrayarkən onun müəllifinin ifadə etmək istədiyi semantik dəqiqləşmələri, işarələr sistemini (fonoloji, leksik, intonasiya-ifadəlilik, pauza və s.) izləyərək, yaxud dinləyərək appersepsiya (dərkedilmiş məqsədyönlü qavrama) əsasında mətnin mənasını təhlil edir. Bəzi tədqiqatçılar bildirirlər ki, (A.A. Leontyev, D.İ. Bogin və b.) mətnin mahiyyətinin ötürülməsi prosesi onun istənilən başqa bir formaya salınması deməkdir. Bu prosesi referat, annotasiya, xülasə, açar sözlər, denototlar formasında fikirlərin sıxılması kimi də başa düşmək olar. Burada əqli nəticənin, eləcə də hər hansı hadisə ilə bağlı yekunda emosional qiymətləndirmənin baş verməsində iştirak edən proseslərə bənzər quruluşlar iştirak edir.

D.A. Leontyev mətnlərin qavranılmasında subyektin şəxsi keyfiyyətlərə köklənmə ehtimalının da böyük olduğunu bildirir. Bu halda subyektin özündə müəyyən emosional vəziyyət aktuallaşır. Şəxsiyyətin təbii quruluşunda duran həmin psixoloji vasitələrə bunları aid edir: mövzu, xronika, metafora, semantika, simvolika, arxetip və s. D.A. Leontyev, həmçinin mətnin qavranılması prosesində onun subyektə təsir göstərən sxemləri ilə bağlı da bir sıra fərziyyələr irəli sürərək 3 əsas amili xarakterizə edir (5, s. 67):

1) məna-dəyər sferası;
2) tələbat və səriştələr;
3) hissi – emosional təsir və əvvəlki informasiya bazası.

Bunlardan başqa, mətndəki mənanın qavranılması, informasiyanın mənimsənilməsi oxuma təcrübəsi, oxuma şəraiti və nitqin təsiri altında baş verir. Subyektiv təcrübəsi dedikdə isə onun quruluşunun psixofunksional tərəfləri, müxtəlif psixolinqvistik cəhətlər, şərhetmə konstruktorları, mətnin xüsusiyyətləri və s. nəzərdə tutulur. Eyni zamanda, burada informasiyanın mənbəyi ilə subyektin həmin informasiyaya münasibəti, prosesin baş verdiyi zaman, məkan, hərəkət amillərinin rolu və təsiri də böyükdür. Onu da qeyd edək ki, mənanın bu cür qavranılması bütün mətnlərə və bütün situasiyalara aid deyildir.

İnformasiya kommunikasiya texnologiyaları vasitəsilə informasiyaların ötürülməsində digər vacib məsələ obrazların semantik qavranılmasıdır. R.M. Əliquliyev və Y.M. Cəfərov xüsusən virtual məkanda sözlərin semantikasının qavranılması məsələlərini belə izah edirlər ki, real həyatda sözün səs kompleksi insan təfəkküründə onun mənasını – məzmun siqnifikatını doğurur və insan lazımi əşyanın məna mənbəyini (denotat), yəni özünü tapır. Virtual aləmdə isə sözün denotatı virtual xarakter daşıyır. Burada insan sözün denotatını deyil, daxil edilmiş açar sözün bələdçiliyi ilə onun mənasını daha təfsilatlı şəkildə əks etdirən mətn, qrafik, audio, video və s. məlumatları axtarır. Sözün mənası barədə əhatəli təriflərdən biri belədir: “Sözün mənası (siqnifikativ məna, siqnifikat)

gerçəkliyin insan şüurundakı inikasının məfhum mərhələsi ilə bir olan ən yüksək mərhələsidir. Sözün mənası predmetin insanların ictimai praktikasında dərk edilən ümumi və eyni zamanda, mühüm əlamətlərini əks etdirir. Sözün mənası özünün son həddi kimi məfhuma doğru can atır" (1, s. 34). Onlar virtual məkanı sinonimlər üçün belə yeni semantik mühit kimi dəyərləndirirlər. Burada sinonimlər söz mənasının iki aspektinə malikdir: 1) dildəki əsas məna; 2) daxil edilmiş sorğudakı spesifik məna.

Göründüyü kimi, qavramanın təşkili proses olaraq xarici obyektlər və hadisələr haqqında sensor məlumatlar yaradan informasiya üzərində işləməkdir. Qavrama prosesinin bir neçə xüsusiyyətləri var: qavramada tamlıq; qavramada mənalılıq; qavramada seçicilik; şəxsi ustanovkalara əsaslanma və s. Buraya, eyni zamanda, insanların hansı məlumat mübadiləsi etdikləri, hansı rolları oynadıqları, hansı məqsədləri həyata keçirdikləri və s. təsir göstərir. Cəmiyyətdə yaşayan hər bir insanın öz rəyi, dünyagörüşü, həyat qaydaları və gözləntiləri olduğundan onların informasiyanı qavrama xüsusiyyətləri də fərqlidir. Bütün insanlar eyni dildə danışa bilərlər, lakin hər kəsin danışdığı sözlər, fikirlərdəki mənalar heç də həmişə onun həmsöhbəti tərəfindən öz mahiyyətində olduğu kimi başa düşülmür.

Əslində, O.Q. Qnatyukun fikirlərinə əsaslansaq, "bəşəriyyətin kommunikasiya tarixi yalnız informasiyanı ötür3mə vasitələrinin inkişafından ibarət olmayıb, məlumatların material və rəmzi, simvolik formada kodlaşdırılmış rabitə kanalları, maddi mesajlar vasitəsi ilə daşıyıcılarının yaranması tarixidir" (4, s. 7).

Sosial həyatın bütün sahələrində olduğu kimi, öyrənmə və mənimsəmə prosesinin kompüterləşdirilməsi öyrənmə nəzəriyyələrinə yeni tələblər qoyur. Belə ki, mənimsəmədə birinci məsələ mövzunun əlaqəli şəkildə qavranılması ilə bağlıdır. Bu prosesdə ümumi prinsiplər var. Hər bir təlim fəaliyyətində yeni materialın mənimsənilməsində bu prinsiplər gözlənilir. O cümlədən, tədris fəaliyyətində idrak proseslərinin yaradıcı tərəfləri bu prinsiplərlə işləyir. Fikri fəaliyyətin göstərilən xüsusiyyətləri təlim prosesində lazım olan biliklərin aktuallaşdırılmasını tələb edir. Yeni təlim şəraiti məhz bu çətinliklərin həllinə yönəldilməlidir. Bu sahədə, əlbəttə, inkişafetdirici mühit yaratmaq lazımdır. Ə.Ə. Əlizadənin gəldiyi qənaət budur ki, qavrayışın məhsulu – obrazdır. "XX əsrin sonlarında obraz kateqoriyası nəzəri-tarixi kontekstdə artıq sistemli araşdırılmağa başlanılıb. Obraz dünyanın subyektiv mənzərəsidir. Bu önəmli obraz subyektin özünü, başqa adamları, olayların məkan və zaman xarakteristikasını əhatə edir. Hətta vaxtilə obrazı perseptiv proseslərlə məhdudlaşdırmaq ənənələri də olub. Müasir psixoloji təsəvvürlərə görə, obraz həm sensor (hissi), həm də əqli obraz kimi özünü göstərir" (2, s. 8).

Qavrama prosesi sadə proses kimi görünsə də, onun necə baş verməsini aydınlaşdırmağa ehtiyac vardır. Bu baxımdan mətn və obrazların necə qavranılması aktual bir məsələ kimi diqqəti cəlb edir. Əgər idrak prosesləri hiss və emosiyaların təsiri altında, onların müşayiəti ilə baş verirsə, bu prosesə şəxsiyyətin bir sıra keyfiyyətləri də təsir göstərir. Ona görə də, hesab edirik ki, müasir təhsildə tələbələrdə obrazların qavranılmasının da tədqiqinə zəruri ehtiyac vardır.

**Problemin aktuallığı.** İnformasiyaların əksəriyyətini kommunikativ texnologiyalarla aldığımız müasir dövrdə bu texnologiyaların tətbiqində nəzərə alınması zəruri olan məsələlərin tədqiq olunması da zərurət kimi meydana çıxır. Əgər kommunikativ texnologiyalarla informasiyanın ötürülməsi zamanı lazımi qaydalara əməl etməsək məqsədimizə çata bilmərik. Burada əsas məqsəd subyektlərə dünyanın gerçəkliklərini çatdırmaq, anlatmaq, öyrətmək və mənimsətməkdir. Bunun üçün də kommunikativ texnologiyalarla ötürülən informasiyaların qavranılmasına verilən tələblər haqqında məlumatlı olmaq lazımdır.

**Problemin elmi yeniliyi.** Məqalədə informasiyanın kommunikativ texnologiyalarla ötürülməsi zamanı nəzərə alınması vacib olan faktorlar öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən tədris prosesində kommunikativ texnologiyalardan istifadə edən müəllimlər, eləcə də tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Əliquliyev, R.M. Virtual məkanda sinonimlər və onlardan istifadə məsələləri // R.M. Əliquliyev, Y.M. Cəfərov. İnformasiya cəmiyyəti problemləri, -2015. - № 1, -34-40

2. Əlizadə, Ə.Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər / Ə.Ə. Əlizadə. - Bakı: ADPU -nun mətbəəsi, -2006. - 345 s.
3. Богин, Г.И. Обретение способрости понимать: Введение в герменевтику / Г.И. Богин. - М.: Психология и бизнес Он Лайн, -2001. – 731 с.
4. Гнатюк, О. Л. Основы теории коммуникации / О.Л. Гнатюк. - М.: Кнорус, -2017. - 256 с.
5. Леонтьев, Д.А. Психология смысла: природа, строение и динамика смысловой реальности / Д.А. Леонтьев - М.: Смысл, 2003. - 487 с.
6. https:// ww/studref.com // Визуальные коммуникации
7. https://gigabaza.ru // Н.Л. Сомова Основные психологические закономерности восприятия информации, цвета и шрифтов

**E mail:** metaneth2@gmail.com
**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.* **Ş.R. Babayeva,**
*psixol.ü.fəls.dok., dos.* **A.Ə. Quliyev**
**Redaksiyaya daxil olub:** 01.05.2023.